

# ZƏRİFLİK İŞIĞI

TAHİRƏ ƏYYUBQIZI
MƏĞRUR

# ZƏRİFLİK İŞIĞI

*(poema)*

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

BAKI-2015

***Redaktor:* BALAYAR SADİQ**
***Azərbaycan Yazıçılar Birliyinin üzvü,***
***Beynəlxalq Rəsul Rza mükafatı laureatı,***
***Prezident mükafatçısı***

Bu kitab ölkəmizin Birinci xanımı, ümummilli liderimiz Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoş məramlı səfiri, xalqımızın sevimli qızı, xeyirxah və nəcib ürəkli, dünya şöhrətli gözəl xanım Mehriban Əliyevaya şair ehtiramının poetik təcəssümüdür.

İnanırıq ki, səmimi və poetik nəfəsi ilə seçilən bu əsər oxucuların marağını qazanacaq.

ISBN: 978-9952-8288-5-6

©Bakı-2015,
T.Məğrur «Zəriflik işığı»
«MBM» nəşriyyatı, 2015



***"Həyatda hər bir kəsin yerini və taleyini tarix müəyyən edir. Odur ki, nə böyük, nə də kiçik rollar olmur. Öz həyat kitabını yazmağa ancaq sənin şəxsi, dərk edilmiş məsuliyyətin imkan verir. Bu kitabda hər bir kəs sözünü şəxsi həyatının və dünyanın qurub – yaradıcısı, yaxud dağıdıcısı kimi təcəssüm etdirir. Kimsənsə, elə də olmalısan – bax, ona görə də özgələrin rollarını və obrazlarını gərək öz üzərinə götürməyəsən. Çünki sən də, dünyada yerin də yeganə və bənzərsizdir".***

***Mehriban Əliyeva***

# TAHİRƏ ƏYYUBQIZI MƏĞRUR

# ZƏRİFLİK İŞIĞI

*(poema)*



## PROLOQ

Mərhəmət *nur*u var hər diləyində,
Ümid ətir saçır saf ürəyində.
İlahə şövqu var gözəlliyində,
Mehriban ürəkli, Mehriban xanım.

Seyid ocağıdır ilkin, əvvəlin,
İmdad istəyənə uzanır əlin.
Cahana bəllidir nəcib əməlin,
Mehriban ürəkli, Mehriban xanım.

Almasın yolunu nə boran, nə qış,
Adına, soyuna olsun min alqış.
Əməlin ellərə tanışdı, tanış,
Mehriban ürəkli, Mehriban xanım.

Nəciblik taxtında ixtiyar sənin,
Xoş niyyət daşıyan bu yollar sənin,
Hər gözəl əməldə imzan var sənin,
Mehriban ürəkli, Mehriban xanım.

Ellər qədəminə təbəssüm sərir,
Gözəl baxışından səadət dərir,
Sən keçən yollarda ümid göyərir,
Mehriban ürəkli, Mehriban xanım.

Üşüyən qəlblərdə ocaq qaladın,
Körpə ümidləri qoynuna aldın.
Sevinclə səslənir Mehriban adın,
Mehriban ürəkli, Mehriban xanım.





Hər şirin kəlamın haqqın səsidir,
Mərhəmət qəlbinin təntənəsidir.
İlhamın sevgisi səni isidir,
Mehriban ürəkli, Mehriban xanım.

Sənin gözəl adın çəkilən yerdə,
Ümid məlhəm olur neçə min dərdə.
Üzünün nuru var doğan səhərdə,
Mehriban ürəkli, Mehriban xanım.

Eşq ilə bəzənib sənin həyatın,
İlham Heydər oğlu qolun, qanadın.
Vətənə şərəfdir xeyirxah adın,
Mehriban ürəkli, Mehriban xanım.

Arzuya, niyyətə qapı açırsan,
Müşgül talelərə işıq saçırsan.
Gözəl əməllərə sən baş tacısan,
Mehriban ürəkli, Mehriban xanım.

Gözəllik boylanır sözündən sənin,
Nəciblik əllənir üzündən sənin.
İlham ilham alır özündən sənin,
Mehriban ürəkli, Mehriban xanım.

Ellər alqışlayır hər əməlini,
İlham sevgi ilə tutub əlini.
Sən ulu öndərin gözəl gəlini,
Mehriban ürəkli, Mehriban xanım.





Könül həmdəmisən rəhbər İlhamın,
Müjdəsi səndədir arzunun, kamın.
Çoxdan qazanmısan xalqın inamın,
Mehriban ürəkli, Mehriban xanım.

Bulaq tək çağlayır məhəbbətiniz,
Bu ana vətənə sədaqətiniz.
Çin olur ürəkdə hər niyyətiniz,
Mehriban ürəkli, Mehriban xanım.

Eşqin meyvəsidir üç övladınız,
Sevinc qanadlıdır qoşa adınız.
Xalqa fərəh verir Vətən andınız,
Mehriban ürəkli, Mehriban xanım.

Mehriban deməkdən doymayır dillər,
Tanrı dərgahına uzanır əllər.
Nəcib əməllərdən zövq alır ellər,
Mehriban ürəkli, Mehriban xanım.

Daim dərdlilərə köməyə yetdin,
Ümidsiz qəlbləri ümidli etdin.
Arzu bağçasında sevinc bitirdin,
Mehriban ürəkli, Mehriban xanım.

Sən uca göylərdən enən mələksən,
Yoxdu bərabərin, dünyada təksən.
Bu nəcib, xeyirxah qəlbinə əhsən,
Mehriban ürəkli, Mehriban xanım.





Gözəl övladısan Azərbaycanın,
Güneyli-qüzeyli bütöv bir canın.
Dünyanı dolaşır şöhrətin, şanın,
Mehriban ürəkli, Mehriban xanım.

Səpdin arzulara ümid ətrini,
Yazdın ürəklərə inam sətrini.
Ellər əziz tutur sənin xətrini,
Mehriban ürəkli, Mehriban xanım.

Nəcibliklə dolu ömrün, həyatın.
Gözəllik rəmzidir bu gözəl adın.
Şərəfli anasan, sevimli qadın,
Mehriban ürəkli, Mehriban xanım.

# I FƏSİL

Qayğın sevindirir yurdda hər kəsi,
Ümid ətirlidir arzunun səsi.
Qəlblərdə açmısan sevinc süfrəsi,
Nemətın var olsun, Birinci xanım.

Dünyanı dərk etdin haqqın səsində,
Gözün haqq-ədalət tərəzisində.
Cahanın gözəllik xəzinəsində,
Zinətin var olsun, Birinci xanım.

Sevinc pətək kimi olubdu şan-şan,
Ellərin qəlbində qurdun toy-nişan.
Dünyanı nəğmə tək gəzib dolaşan.
Şöhrətin var olsun, Birinci xanım.





Nəcabət əhlisən ləyaqətin var,
Sevgidə ən böyük dəyanətin var.
Milyon-milyon qəlbddə məhəbbətin var,
Ülfətin var olsun, Birinci xanım.

Ömrünə yaraşır bu gözəl ad-san,
Haqqsız əməllərə həmişə yadsan.
Daim həqiqətə arxa-dayaqsan,
Cürətin var olsun, Birinci xanım.

Sevgi çeşməsi tək daim çağladın,
Eşqini həmişə uca saxladın.
İlhama əbədi könül bağladın.
Saf əhdin var olsun, Birinci xanım.

Sevgi bağçasıdır köksündə ürək,
Eşqin gülümsəyir hey çiçək-çiçək.
Zərifə xanımı sevdin ana tək,
İffətin var olsun, Birinci xanım.

Əməli dünyaya gün kimi əyan,
Yurdun şöhrətini cahana yayan,
Ellərin qəlbində coşub-çağlayan,
Hörmətin var olsun, Birinci xanım.

Qədrini bilirsən ötən hər anın,
Gözəl gəlinisən Heydər babanın.
Şərəfli qızısan elin, obanın
İsmətin var olsun, Birinci xanım.





İlhamın eşqinin əzəli sənsən,
Dilinin şeiri, qəzəli sənsən.
Cahanda gözəllər gözəli sənsən,
Qamətin var olsun, Birinci xanım.

Bələnib ətrinə sevdalı yollar,
Sənin qədəmini salamlar bahar.
Xeyirxah niyyətli bir ürəyin var,
Ülfətin var olsun, Birinci xanım.

Hər zaman durmusan haqqın yanında,
Xoş niyyət olubdur xoş ünvanında.
Nəciblik çağlayır daim qanında,
Pak cəddin var olsun, Birinci xanım.

Tükənmir qəlbinin sərvəti, varı,
Vətən səndə gördü düz etibarı.
Oldun yetimlərin himayədarı,
Diqqətin var olsun, Birinci xanım.

Allah qismətinə nəciblik yazıb,
Qəlbində mərhəmət qəndili asıb.
El-oba adını bağrına basıb,
Hörmətin var olsun, Birinci xanım.

Ümid dənizi tək çağladın hər an,
Kədərin yolunu bağladın hər an.
Dərdliyə mərhəmət payladın hər an,
Ülviyyət soraqlı, Birinci xanım.





Vətən qucaq açıb hər əməlinə,
Xoş kəlam yaraşır şirin dilinə.
Dayaqsan əzəldən doğma elinə,
Dəyanət soraqlı, Birinci xanım.

Bitib tükənməyir gözəl həvəsin,
Bahar ətirlidir mələk nəfəsin.
Hər yana şərafət paylayır səsin,
Səadət  soraqlı, Birinci xanım.

Heç zaman yolların görməsin qada,
Sənə heyran olub doğma da, yad da.
Xalqın əzizi var  Mehriban adda,
İzzətli soraqlı, Birinci xanım.

Azf-28718



M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

Ən uca haqqın da vardır təməli,
Sənə nur veribdir Tanrının əli.
Məramın əzəldən ellərə bəlli,
Mətanət soraqlı, Birinci xanım.

Camalın bənzəyir günəşə, aya,
Yaradan aşiqdi bu haqqı-saya.
Niyyətin bənzəyir nulu saraya,
Təravət soraqlı, Birinci xanım.

Qəlblərə məlhəmdi xeyirxah sözün,
Xalqa hənir verir məhəbbət közün.
Nuri-təcəlladır o gözəl üzün,
İnayət soraqlı, Birinci xanım.





Gözəldir bu ömür, gözəldir bu çağ,
Hallalıq yoluna ümid yağacaq.
Qəmli ürəklərdə qaladın ocaq,
Mərhəmət ünvanlı, Birinci xanım.

Nəcib soy-kökünlə yurda bəllisən,
İnamlı könlünə min dəfə əhsən.
Rəbbin yaratdığı türfə gözəlsən.
Mərhəmət ünvanlı, Birinci xanım.

İlham əzəl gündən boyuna aşiq,
Gözəllik adına adın yaraşıq.
Səni vəsf eleyir hər ustad aşıq,
Mərhəmət ünvanlı, Birinci xanım.

Sanki nur ələnir getdiyin yola,
Arzular səninlə girib qol-qola.
Nəciblik eşqiylə qurmusan qala,
Mərhəmət ünvanlı, Birinci xanım.

Niyyətin bu yurdda ehtişam qurur,
Önündə ucalar ayağa durur.
Gözündə ilahi nuru bərq vurur,
Mərhəmət ünvanlı, Birinci xanım.

Müqəddəs məqamı ziyarət etdin,
Əlsiz-ayaqsızın karına yetdin.
Ümid ağacı tək qəlblərdə bitdin,
Mərhəmət ünvanlı, Birinci xanım.





## II FƏSİL

Ümid nəğməsidir hər bir niyyətin,
Məftun eyləmisən könülləri də.
Gözəl əməllərin bir məşəl kimi,
Asılıb zamanın üfüqlərində.

Qəlbindən ellərə nur paylayırsan,
Nəciblik necə də ruhu isidir.
Yurda ümüd ətri gətirən hər gün,
Bəxtəvər çağların bir müjdəsidir.

Bu hikmət əzəldən cahana bəlli,
İlahi qüdrətdir böyük əməllər.
Mehriban adını əzizləyir, bax,
Tanrı dərgahına ucalan əllər.

Sən neçə arzuya həyat vermisən,
Ülfətin qəlblərə məlhəm olubdur.
Xalqa çox yaxınsan sadəliyinlə,
Sevinc yaşlarıyla gözlər dolubdur.

Bu sevgi naxışlı əməllərində,
Şanlı gələcəyin ümid ətri var.
Mehriban adının ellər yanında,
Böyük hörməti var, uca xətri var.

Ucalıq eşqinə könül vermisən,
Ömrünə xoş niyyət olub bələdçi.
Yaşayır qəlbində Allaha inam,
Yaradan ülvilik boynuna biçib.





Təkcə göz həkimi deyil sənətin,
Həm də bu millətin ruh həkimisən.
Ömür qapıların şaxta kəsəndə,
Qəlbləri isidən ocaq kimisən.

Müqəddəs ocaqda cahana gəldin,
Tanrı zamin olub səadətinə.
Məramın həmişə xoş olduğundan,
Mələklər yol açıb hər niyyətinə.

Sənin hər əməlinin, sənin hər işin,
Xalqın ürəyində qalayır ocaq.
Mehribanın səsi gələn diyarda,
Tanrı ümidsizə kömək olacaq.

Sənin ürəyini gördüyü üçün,
Gözəl yaradıbdı Tanrı baxtını.
Millətin qəlbində, xalqın gözündə,
Qurmusan özünə hörmət taxtını.

Nəcib bir ocağa cehiz apardın.
Bir nəcib ocağın ənənəsini.
Həyat zaman-zaman sənin səsində,
Ülvi bir niyyətin duyub səsini.

Ömrün təravətli bahar çağında,
Sevərək İlhama verdin könlünü.
O gözəl məqamdan, andan başladı,
İki sevən qəlbin məhəbbət günü.





İlhamdır eşqinin əbədi nuru,
Bu nurdan yaranıb üç övladınız.
Sevgi dünyasına olubdur bəzək,
Eşqin bağçasında qoşa adınız.

Şərəfli oğula könül verəndən,
Sən onun ömrünün yaraşığısan.
Sənə ürəyini verən İlhamın,
Könül işığısan, göz işığısan.

Neçə sınaqları dağ kimi aşıb,
Dəniz tək çağlayıb, çay kimi daşıb.
Nəğmə tək ürəkdə o qərarlaşıb,
İmhatandan keçib sizin sevginiz.

Zərgərin əlində qiymətlidir zər,
Heç zaman saf eşqə dəymir bədnəzər.
Əbədi parlayan günəşə bənzər,
Tufanlardan keçib sizin sevginiz.

Eşqin butasıdır, yar ağacıdır,
İki sevən qəlbin ehtiyacıdır.
Daim müqəddəsdir, daim ucadır,
İmtahandan keçib sizin sevginiz.

Məhəbbət yaraşıq verir həyata,
Könül duyğulara baş qoyub yata.
Həqiqi sevgilər butadır, buta,
İmhatandan keçib sizin sevginiz.





Xain baxışlara sancılan oxdur,
Ətri, təravəti gül kimi çoxdur.
Tanrının payıdır, əvəzi yoxdur,
İmhatandan keçib sizin sevginiz.

Ötən ömür-günün hər bir çağında,
Qəndillər alışır can otağında.
Əbədi bahardır eşqin bağında,
İmhatandan keçib sizin sevginiz.

Eşqin bağçasında üç fidan bitib,
Arzular böyüyüb ərsəyə yetib.
Ayrılıq dumanı əbədi itib,
İmhatandan keçib sizin sevginiz.

## III FƏSİL

Xeyirxah niyyətin xoş müjdəsidir,
Qayğısı neçə min qəlbi isidir.
Qəlblərdə ümidin təntənəsidir.
Haqqın naxışıdır Mehriban xanım.

Vətənə sevgiylə qəlbi çağlayır,
Üşüyən qəlblərdə ocaq qalayır.
Ümidsiz ürəyə ümid paylayır.
Yurda yaraşıqdır Mehriban xanım.

Həyat bir dənizdir, ömür bir ada,
Yaradan ömürlər getməyir bada.
Xeyirxahlıq adlı nəcib dünyada,
Sönməz bir işıqdır Mehriban xanım.





Könüllər isidən alovdur, oddur,
Allahım, sən onun köməyində dur.
Nəcib əməlllərin ünvanı odur,
Tanrıya aşiqdır Mehriban xanım.

Mehriban xanımın nəcib əməli,
Tanrı dərgahına uzanan yoldu.
Görsə də dünyanın naz-nemətini,
Xeyirxahlıq onun amalı oldu.

Külli-kainatı yaradan Allah,
Xoş niyyət yazıbdır onun bəxtinə.
Şan-şöhrət dəyişə bilməyib onu,
Dünya heyran qalıb səxavətinə.

Cahana xeyirxah gələn bəndənin,
Ümid nəğməsidir ünvanı, adı.
Mehriban xanımın zəngindi ruhu,
Hikmətlə dərk edir daim həyatı.

Bir gün gözəllik də saralır, heyhat,
Yaxşılıq solmayan bir yaraşıqdır.
Uca yaradanın haqq dərgahından,
Bəndənin ömrünə düşən işıqdır.

Minnətsiz yaxşılıq ilahi paydır,
Dünyada hər kəsin bəxtinə düşmür.
Zamanın, taleyin şaxtasında da,
Xeyirxah ömürlər heç vaxt üşümür.





Nəcib ürək ki, var günəşə bənzər,
Onun odu ilə cahan isinir.
Xeyirxah niyyətlər yaşayan yerdən,
Ölüm uzaq qaçır, zülüm diksinir.

Ürək bir ünvandır yaxşılıqlara,
Ömür qiymətini yaxşıdan alır.
Xeyirxahlıq adlı müqəddəsliyi,
Hər gün əməlində yaşadan alır.

Çiçək dənizidir, nur dənizidir,
Xeyirxah əməllər, yaxşı əməllər.
Müqəddəs heykəldi xeyirxahlığa,
Tanrı dərgahına ucalan əllər.

Xoş niyyətdən doğan xətir-hörməti,
Nə tufanlar yıxar, nə də zəlzələ.
Xeyirxah əməllər, nəcib əməllər,
Ən uca, ən böyük heykəldir elə.

Haqqın, həqiqətin gün doğan yeri,
Tanrı dərgahıdı xeyirxah ürək.
Hallalıq istəyən fani dünyada,
Özünü ziyarət eyləsin gərək.

Ən parlaq ulduz da sönəcək bir gün,
Xeyirxah əməllər sönməz ocaqdır.
Xeyirxah insanın ömrü bitsə də,
Nəcib əməllərdə yaşayacaqdır.





Bəzən bir yetimin gözündəki yas,
Ağırdı cahanın hər bir qəmindən.
Əyil, bir körpənin yaşını qurut,
Allah xaşhal olar bu əməlindən.

Müdriklər söyləyib ömür var ikən,
Xeyirxahlıq adlı ümmana baş çək.
Yaxşılıq eyləyib sən at dəryaya,
"Balıq bilməsə də, xalıq biləcək".

Qəlbini yuva et xoş niyyətlərə,
Daim haqq adlanan qüdrətə sığın.
Təkcə söyləməklə iş tamam olmur,
Adla körpüsünü sən yaxşılığın.





Bütün olmuşları yerbəyer edir,
Zaman əzəl başdan məhək daşıdır.
Zamanın içində bir yaşasaq da,
Bizdə də bir parça zaman yaşayır.

Alın yazısıdır səndə nəciblik,
Bu sənə kökündən, soyundan gəlir.
Sən öz əməlinlə ucalığından,
Şöhrətin həmişə göyə yüksəlir.

Bu gün yurdumuzun hər güşəsində,
Firavan həyatın üzü görünür.
Hər görülən işdə, nurlu əməldə,
Nəcib insanlığın izi görünür.

Doğma vətənimin gözəl çağları,
Hələ qabaqdadır, hələ qabaqda.
Hər yanda həqiqət təntənəsi var,
Həyat göz oxşayır aranda, dağda.

Güllər öz dilində nəğmə oxuyur,
Açıb yaxasını bağça da, bağ da.
Qələbə müjdəli o gözəl günlər,
Yaxına gəlibdir, deyil uzaqda.

Doğma vətəninə bağlanan ömür,
Həmişə ucalar, əsla əyilmir.
Torpağı müqəddəs sayıb babalar,
Adına ana da əbəs deyilmir.





## IV FƏSİL

Sevda bağçasında İlham ömrünün,
Sevgi çiçəyidir Mehriban xanım.
Bütün gözəllərin, gözəlliklərin,
İlki, göyçəyidir Mehriban xanım.

Göy üzündən enmiş incə, mələkdir,
Ölkə rəhbərinin ömür yoldaşı.
Qiymətli üzükdür İlhamın ömrü.
Mehriban xanımdır üzüyün qaşı.

Adi qadın deyil Mehriban xanım,
İlhamın ömrünün ilhamıdır O.
İlhama üç gözəl övlad bəxş edən,
Əbədi sevgiyə inamıdır O.

Onun nəcibliyi, xeyirxahlığı,
Dünyanı sevgiylə salıb heyrətə.
İlhamın eşqiylə gülür gözləri,
Əhsən qəlbindəki uca qeyrətə.

Mehriban xanımın adı gələndə,
Xalqın ürəyində arzular gülür.
Xeyirxahlıq dolu hər əməlindən,
Ellərin yoluna şəfəq tökülür.

Adına nəciblik yaraşır onun,
Ömrü xeyirxahlıq, sevgi nəğməsi.
Insanlıq adlanan sirli xalçada,
Hər bir əməlidir ümid ilməsi.





Gözəl bir mələkdir Mehriban xanım,
Gözəllər gözəllik yaradır ancaq.
Birinci xanımı Azərbaycanın,
Daim gözəlliyə ünvan olacaq.

Neçə ümidsizə ümid paylayır,
Xeyirxah ürəkli Mehriban xanım.
Oz nəcib qızıyla öyünür hər vaxt,
Ərənlər diyarı Azərbaycanım.

"Xoşmərəmlı səfir" adını, aldın,
Könüllər sevindi bu xoş xəbərdən.
Fəxarət gətirdin uca millətə,
Ölkələr dolaşan hər bir səfərdən.

Odlar diyarının gözəl qızına,
Vətən məhəbbətlə açıb qucağın.
Xoşbəxtlik pay verib Tanrı İlhama,
Sevgi ətirlidir hər ötən çağı.

Bəxtinə nə gözəl qismət yazılıb,
Heydər ocağının nəcib gəlini.
İlham tək bir ülvi məhəbbətin var,
Xoşbəxtlik sıxıbdır sənin əlini.

Barlı ağac kimi xoş bəhərin var,
Leylan var, Arzun var, həm Heydərin var.
İlham tək sevimli hünərvərin var,
Taleyin xoş olsun, Mehriban xanım.





Müqəddəs ocaqda gəldin cahana,
Güldü Arif ata, Aidə ana.
Çiçək ətri gəldi bir gülüstana,
Taleyin xoş olsun, Mehriban xanım.

Şəhanə xanımsan, sevgidə şahsan,
Bağlı ömürlərə qapı açırsan.
Ümidsiz yollara işiq saçırsan,
Hər arzun çin olsun, Mehriban xanım.

Uca sevgisisən rəhbər İlhamın,
Vətən ətirlidir hər arzu-kamın.
Könüllərə dolub uca inamın,
Hər arzun çin olsun, Mehriban xanım.

Çiçək tək açılır sözün yaxası,
Gözəllər gözəli, gəlinlər xası.
Üç gözəl övladın mələk anası,
Hər arzun çin olsun, Mehriban xanım.

Daim nəcibliyə vurğundur ürək,
Odur ilk mənası insan ömrünün.
Vətənin ömrünə güzgü tutmusan,
Səninlə öyünür ellərin bu gün.

Sən gözəl mələksən, Mehriban xanım,
Əzəldən nəcibdir arzun, niyyətin.
Yurdun tarixinə işıq səpirsən,
Şanlı elçisisən mədəniyyətin.





Mehriban xanımın hər bir əməli,
Solmaz ümidlərin xəzinəsidir.
Sağalan neçə min körpə taleyi,
Nəcib əməllərin təntənəsidir.

Haçansa ümidin üşüsə birdən,
Bu zərif xanımın mehrinə sığın.
Mehriban xanımın nəcib ürəyi,
Ünvanı olubdur xeyirxahlığın.

Xeyirxah insanlar fani dünyada,
Haqqın dərgahına yazır adını,
Yaradan sevgiylə müjdələyəcək.
Uca niyyətini, ulu andını.

Çiçək tək açılır sözün yaxası,
Gözəllər gözəli, gəlinlər xası.
Üç gözəl övladın mələk anası,
Hər arzun çin olsun, Mehriban xanım.

Daim nəcibliyə vurğundur ürək,
Odur ilk mənası insan ömrünün.
Vətənin ömrünə güzgü tutmusan,
Səninlə öyünür ellərin bu gün.

Sən gözəl mələksən, Mehriban xanım,
Əzəldən nəcibdir arzun, niyyətin.
Yurdun tarixinə işıq səpirsən,
Şanlı elçisisən mədəniyyətin.





Mehriban xanımın hər bir əməli,
Solmaz ümidlərin xəzinəsidir.
Sağalan neçə min körpə taleyi,
Nəcib əməllərin təntənəsidir.

Haçansa ümidin üşüsə birdən,
Bu zərif xanımın mehrinə sığın.
Mehriban xanımın nəcib ürəyi,
Ünvanı olubdur xeyirxahlığın.

Xeyirxah insanlar fani dünyada,
Haqqın dərgahına yazır adını,
Yaradan sevgiylə müjdələyəcək.
Uca niyyətini, ulu andını.

## V FƏSİL

Safdır, müdəqqəsdir damarda qanın,
Hünərvər qızısan Tomris ananın.
Şərəf kitabında Azərbaycanın,
Ləyaqət payın var, Mehriban xanım.

Kaman harayında, saz havasında,
Turfə gözəllərin naz havasında,
Bizə üzə gülən yaz havasında,
Təravət payın var, Mehriban xanım.

Doğma yurdumuzun gözəl çağında,
Müqəddəs pirində, həm ocağında,
Sevən könüllərin sevgi bağında,
Məhəbbət payın var, Mehriban xanım.





Musiqi səslənir könül tarında,
Ellərin bəxtəvər duyğularında.
Xoşbəxt gəlinlərin laylarında,
Ləyaqət payın var, Mehriban xanım.

Sevimli İlham tək böyük rəhbərin,
Dünyada tanınan ərənin, ərin,
Ömür yollarında gənc nəsillərin,
Şərafət payın var, Mehriban xanım.

Dünyanın yenilik yarışlarında.
Milli xalşaların naxışlarında,
Xoşbəxt körpələrin baxışlarında,
Ülviyyət payın var, Mehriban xanım.

Ellərin ən ulu, baş arzusunda,
Körpə balaların yaş arzusunda,
Xəstə insanların xoş arzusunda,
Şəfaət payın var, Mehriban xanım.

Ləzzət bölgüsündə, dad bölgüsündə,
Ocaq şöləsində, od bölgüsündə,
Ən əziz, müqəddəs ad bölgüsündə.
Məharət payın var, Mehriban xanım.

İmanımız torpaq məhəbbətində,
Böyüyən gəncliyin səadətində,
Millətin ən ali ziyafətində,
Qüdsiyyət payın var, Mehriban xanım.





Haqq, ədalət, dəyanət döyüşündə,
Ellərin xeyirxah, nəcib işində,
Millətin, günbəgün yüksəlişində,
Qətiyyət payın var, Mehriban xanım.

Güllərə pay düşüb gözəlliyindən,
Gözü səndə qalıb gözəlliyin də,
Yurdumun ən zərif gözəlliyində,
Məlahət payın var, Mehriban xanım.

Əməlin bənzəyir doğan səhərə,
Qapını bağladın gələn, qəhərə.
Tanrı izni ilə kimsəsizlərə,
Mərhəmət payın var, Mehriban xanım.

Həmişə ucadır, pakdır niyyətin,
Cahana bəllidir bu ülviyyətin.
Bu gün təbliğində mədəniyyətin,
Mərifət payın var, Mehriban xanım.

Xoşməramlı səfir, sevimli elçi,
Səndən nicat aldı muğamatımız.
Dünyanın musiqi salonlarında,
Sevgiylə səslənir bu gün adımız.

Sanki körpə kimi bəslənib bu gün,
Nazlı gəlin kimi süslənir bu gün.
Könül nəğməsi tək səslənir bu gün,
Ruha qanad verən baldı muğamat.





De, nədir çırpınan o qəlbindəki,
Çağlayır ilahi bir nəğmə təki.
Yetimin könlünü almağa sanki,
Qolunu boynuna saldı muğamat.

Səssiz avazı var dağın, daşın da,
Axır pərdə-pərdə hər göz yaşında.
Bu elin obanın qan yaddaşında,
Ulu nəğmə kimi qaldı muğamat.

Daim mələklərlə danışıb,dinib,
Odlar diyarına göylərdən enib.
Sanki hər pərdəsi bir közə dönüb,
Canımızdan canı «çaldı» muğamat.

Bir qərib köksündə ahdı-amandı,
İlahi avazdı, müqəddəs anddı.
İsrafil surudu, sirli sapandi,
Məni göy üzünə atdı muğamat.

Ən qədim, ən ulu nağıllar kimi,
Döyüşdə çarpışan oğullar kimi.
Tufandan qurtulan dalğalar kimi,
Baş qoyub sahilə yatdı muğamat.

Şan-şöhrət gətirir həm sənətkara,
Həm çəkir, həm də ki çəkilir dara.
Gah qışa bənzəyir, gah da bahara,
Göylər tək gör, neçə qatdı muğamat.





İlahi bir eşqin möbhəm ahından,
Tanrı qüdrətindən, haqq dərgahından.
Yerlərin, göylərin ulu şahından,
Xalqa əvəzsiz baratdı muğamat.

Ruhun dan yerindən, lap uzaqlardan,
Adlayıb min illik borandan, qardan.
Ərən babalardan, ər babalardan,
Xalqa müqəddəs amanatdi muğamat

Mehriban xanımdan söhbət açanda,
Ümid çiçəkləyir sətirlərimdə.
Gün düşür bəxtinə ülvi sözlərin,
Sanki gülümsəyir sətirlərim də.

Adi insanlara heç vaxt bənzəmir,
Tanrının paydır xeyirxah ürək.
Nəciblik axtaran öncə həyatda,
Özünü ziyarət eyləsin gərək.

Cahanın pozulmaz qanunudur bu,
Xeyirxah əməllər sönməz ocaqdır.
Nəcib əməllərə könül verənlər,
Fəqət zaman–zaman yaşayacaqdır.

Gələn gedəsidir, bəllidir hökm,
Bəşər övladından iz qalsın gərək.
Anla bu mənanı nə qədər sağsan,
Hikmət ocağında köz qalsın gərək.





Əməlsiz bir ömrün yoxdur mənası,
Yaxşı söyləyibdir müdrik babalar.
Nəcib əməllərə könül verənlər,
Hər iki cahanda bəxtiyar olar.

Xoşməramlı səfir Mehriban xanım,
Millət əməyinlə öyünür sənin.
O geniş ürəyin, şəfqətli qəlbin,
Daim mərhəmətlə döyünür sənin.

Xoşməramlı səfir Mehriban xanım,
Bu millət barınır mərhəmətindən.
Hələ neçə dastan yazılacaqdır,
Bu elə, bu yurda məhəbbətindən.

Sən ulu öndərin nəcib gəlini,
Dünyada tanınan işlər görürsən.
Millət fəxarətlə söyləyir bu gün,
Çəkdiyin əməyə, zəhmətə əhsən.

Sənin şövqün ilə ana Vətəndə,
Qurulub minlərlə təhsil ocağı.
Heydər dühasına layiqdir bu gün,
Vətən gəncliyinin mübarək çağı.

Yurdun gələcəyi təhsilə bağlı,
Nə gözəl söyləyib babamız Heydər.
Ulu şəxsiyyətin nurlu adından,
Millətin yoluna açıldı səhər.





Təhsil ocaqları qatarlanıbdır,
Genişdir meydanı, mənəviyyatın.
Bir yanda «internet», bir yanda kitab,
Budur mənzərəsi çağdaş həyatın.

Məktəblər sabaha uzanan yoldur.
Bu yolda əbədi işıqdir kitab.
Həyat kitabların arasındadır.
Nurlu gələcəyi kitablarda tap.

Belə anlayıram, düşündükcə mən,
Fikrin «çörəyidir, duzudur» kitab.
Hikmət dünyasınının gələcək nəslə,
Ən müdrik öyüdü, sözüdür kitab.

Dilsiz əsərləri gətirir dilə,
Bir sirr saxladığı olmayıb hələ.
Ərən babaların qılıncı ilə,
Yazılan tarixin özüdür kitab.

Dahi Nizaminin oz « Xəmsə»sidir,
Koroğlu nərəsi, «Cəngi» səsidir.
Xətai babanın yurd sevgisidir,
Həm Muğandı, həm Mil düzüdür kitab.

Ondadır insanın arzu diləyi,
Neçə min dahinin çarpan ürəyi.
Bəşərin keçmişin, həm gələcəyin,
Daha uzaq görən sözüdür kitab.









Xoşməramlı səfir Mehriban xanım,
Ümid işığı var sənin səsində.
Hamıdan ucasan, hamıdan başsan,
Xeyirxah niyyətin tərəzisində.

Xoşməramlı səfir Mehriban xanım,
Səndən sövq alıbdır muğamatımız.
Dünyanın musiqi zirvələrində,
Bu gün dalğalanır milli adımız.

Köməksiz insanlar, xəstə uşaqlar,
Sayəndə şəfqətlə görünür indi.
Bu gün yurdumuzun hər güşəsində,
Nəcib əməllərdə imza sənindir.

Cahan soraqlıdır zərif əməllər,
Ünvanı bəllidir bu ehtişamın.
Adın Mehribandır, özün mehriban,
Dünyanı dolaşır şanın,şöhrətin.

Xalqın yaratdığı mədəniyyətin,
Üstünə ələnən tozları sildin.
Milli ruhumuza YUNESKO-da da,
Ən uca abidə yarada bildin.

Sevimli İlhamla ömür bağında,
Sevgiylə durmusan çiyin-çiyinə.
Bu yurdu, bu xalqı aparırsınız,
İşıqlı günlərin ənginliyinə.





Vətəni cənnətə çevirib İlham,
Ellər sevinc ilə ömürünü sürsün.
Kim görmək istəyir hünərinizi,
Qoy hər gün ucalan Vətəni görsün.

Sən göylərdən enən ülvi mələksən,
Gözəldir, nəcibdir arzun, niyyətin.
Təravət səpirsən xalqın ruhuna,
Böyük elçisisən mədəniyyətin.

Uca Yaradanın məhəbbətiylə
Alışıb ocaqda ümid közləri.
Mehriban xanımın alnına yazıb,
Rəbbimiz ən gözəl, nəcib sözləri.

Sevgi butasıdır Mehriban xanım,
Gözəllik ələnir gözəl üzündən.
Ona el sevgisi dərindən-dərin,
Tanrım, muğayat ol, bu el qızından.

Şanlı millətimin qəlbinə baxın,
İlhamla Mehriban qoşadır orda.
Bu nəcib, sevdalı iki ürəyi,
Tanrı pay veibdir bu ulu yurda.





## VI FƏSİL

Adın ölkələri şərəflə gəzir,
Səninlə gül açır arzu, gumanım.
Dünyanın ən uca kürsülərində,
Səsindən boylanır Azərbaycanım.

Tarixi qədimdir ənənələrin,
Sən ona millilik donu biçmisən.
Odlar diyarının ulu haqqını,
Dünyaya tanıtmaq yolu seçmisən.

Milli ruhumuzda güzgülənir, bax,
Cahanın ən qədim mədəniyyəti.
Bizə bəxş eləyib bu haqqı-sayı,
Mehriban xanımın uca niyyəti.

Qədim Avropanın qapılarını,
Milli ruhumuzun üzünə açdın.
Əritdin tarixin qaranlığını,
Zamanın gözünə gur işıq saçdın.

Bu qoca dünyanın çox mətləbini,
Bizim gözümüzdə sərgi eylədin.
Cahanın mənəvi ucalığında,
Milli bayrağımı özün yellədin.

Zamanın yolları heç vaxt düz olmur,
Bunu qəm eyləmir ilqarı düzlər.
Vətənsevərlərin məhəbbətiylə,
Gəlintək bəzənir dərələr, düzlər.





Vətənin tarixi, yurdun tarixi,
Vətən sevgisindən başlanır müdam.
Hər gün üfüqlərin gözlərini öp,
Özün öz içində vətənləş, adam.

Bu yurdda ruhumuz doğulan gündən,
Döyüş nəğməsini oxuyub yollar.
“Aslanın erkəyi, dişisi olmaz”
Nə gözəl söyləyib ərən babalar.

Nəcib ürəyində Tanrı nuru var,
Eşqində əzəldir Mehriban xanım.
Dünya heyran qalıb gözəlliyinə,
Dünya gözəlidir Mehriban xanım.

Ürəyi adına təravət qatıb,
Adına yaraşır hər bir əməli.
Adı Mehribandı, özü mehriban,
Onun nəcibliyi ellərə bəlli.

Milli ruhumuza ayna tutubdu,
Onunla öyünür vətən torpağı.
Gözəl, məlahətli el gözəlidir,
Ömrünə bəzəkdir xeyirxahlığı.

Uca xalqımızın ulu adəti,
Şirin qayğısıyla cahanı gəzir.
Bizimçün səslənən hər alqış səsi,
Sanki düşmənlərin bağrını əzir.





Başlanıb yurdumun gözəl günləri,
Ümidlər al-əlvan rəngə bürünür.
Birinci xanımın yurd sevgisindən,
Bəxti gülümsəyən vətən görünür.

Mehriban xanımın uca şanına,
Nəğmə bəstələyir könül simləri.
Onun qamətiylə dəyər qazanır,
Cahanın möhtəşəm mərasimləri.

Dünya meydanında YUNESKO bu gün,
Ali kürsüsüdür mədəniyyətin.
Bu yurdu tanıdıb Mehriban xanım
Açıb qapısını ulu hikmətin.

Nəcib məharətin xoş əməliylə,
Qürur libaslıdır Azərbaycanım.
Qədim Qobustanın qayaları da,
Səni salamlayır Mehriban xanım.

Sənin məharətin, xeyirxahlığın,
Ülfətin cahanı salıb heyrətə.
Adınla öyünür Odlar diyarı,
Əhsən, könül açan bu ülviyyətə.

Sənin dayandığın hər bir məkanda,
Arzular gözəldir, niyyətlər gözəl.
El-oba heyrandır sədaqətinə,
Bütün gözəllərdən gözəlsən, gözəl.





Uca məramınla, pak niyyətinlə,
Dünyanı dolaşır milli ruhumuz.
Vətənə, millətə məhəbbətinlə,
Bulaq kimi daşır milli ruhumuz.

Gülşəni saralmış yaddaşımızda,
Açdi çiçək-çiçək muğamatımız.
Qayğıkeş əzminlə yer kürəsini,
Gəzdi ürək-ürək muğamatımız.

Ululardan ulu soyun bəllidir,
Nəcabət ətri var canında sənin.
Nəcib gözəlliyin tərifə sığmır,
Məhəbbət çağlayır qanında sənin.

Tarixlər şahidi bu uca xalqın,
Ruhunu cahana tanıtdın, gəlin.
Ömrünə yar olmuş İlhamın kimi,
Səxavət güşəsi olubdur əlin.

Sənin qayğın ilə qanadlanaraq,
Dünyanı dolaşır muğamatımız.
Zərif bir xanımın ülfəti ilə,
Gəzir Avropanı milli adımız.

Gözəl ruhun ilə müdrik düşüncən,
Milli ruhumuza verib qol-qanad.
Səndən tükənməyən qüdrət alıbdır.
Bir yeni ovqata köklənib həyat.





Gözündə parlayan məhəbbət nuru,
Ələnir hər səhər xalqın ömrünə.
Yeni əməllərin həvəsi ilə,
Çıxırsan sevimli xalqın önünə.

Səndən söz açdıqca sövq alır qələm,
Ümid ətri gəlir şeirlərimdən.
Yurdun hər yerini sevinc dolaşır,
Gülür üzümüzə anamız Vətən.

Firəvan günlərə çatıbdır Vətən,
Xoş əməl həmişə şərəf gətirir.
Gözəl niyyətləri əl-ələ verib,
Ellər bağçasında ümid bitirir.

Hədiyyə edirsən gələcək nəslə,-
Məktəblər gül açmış zəhmətin sənin.
Ellərin gözündə, xalqın qəlbində,
Ən uca zirvədir hörmətin sənin.

Yaralı qəlblərin xilaskarısan,
Sevgin milyonlara məlhəm olubdu.
Mərhəmət işıqlı hər sözün ilə,
Neçə min ürəyə sevinc dolubdu.

Yurdun eşqi ilə çağlayır qəlbin,
Vətən ətri gəlir hər bir sözündən.
Sənin təbəssümün sevinc payıdır,
İşıq, nur ələnir gözəl üzündən.





"Gözəllik dünyanı xilas edəcək",-
Bu kəlam əzələdən alın yazındı.
Sənin ürəyinin hərarətində,
Dünyada neçə min insan qızındı.

İlhamla qol-qola gəzdiyin zaman,
Ellər heyran qalır bu boy-buxuna.
İki sevən qəlbdə çağlayan eşqə,
Dastanlar, nəğmələr gərək oxuna.

Sevgiylə böyüdün doğma ocaqda,
Arzusu çin oldu bir göz həkminin,
Gözəl baxışların bir səhər oldu,
İlhamın qəlbində sevgi hakimi.

Şükür millətimiz qədəm basıbdır,
Müstəqillik adlı şərəfli yola.
Necə də vüqarla yol gedir İlham,
Mehriban xanımla girib qol-qola.

Vətəndə tikilən hər yeni məktəb,
İnkişaf, tərəqqi, inam deməkdir.
Vətəndə tikilən hər yeni məktəb,
Gələn nəsillərə ənam deməkdir.

Məktəbdir firəvan həyat açarı,
Tərəqqi yolları ordan başlanır.
Nəcib bir xanımın nəcib əməli,
Təhsil yollarında məşəl tək yanır.





Məktəbdən başlayır müasir insan,
Çağdaş düşüncəyə təməl gərəkdir.
Əməlsiz söhbətin mənası yoxdur,
Dəyər meydanında əməl gərəkdir.

Hikmət bulağıdır təhsil əzəldən,
Hami bu çeşmədən su içməlidir.
Dünyanın düzəni dəyişir bu gün,
İnsan təhsiliylə seçilməlidir.

Məktəb ünvanıdır uca amalın,
Məqsədin amalın gün tək bəllidir.
Bu günün məktəbi təhsillə birgə,
Böyük vətəndaşlar yetirməlidir.

Mehriban xanımın məhəbbətiylə
İlham doğma yurdda yaradır, qurur.
Bu gün məmləkətdə hər vətəndaşın,
Gözündə sevinc var, qəlbində qurur.

İlhamın qüdrəti ellərə bəlli,
Onun hər işində hünər görünür.
Qadir əlləriylə bu doğma Vətən,
Al-əlvan, ətirli gülə bürünür.

Mürəkkəb dünyanın olayları çox,
Məzmunu dərindir çox söhbətlərin.
İlham siyasətdə bir dahi kimi,
Açır qapısını həqiqətlərin.





Qarışıq dünyadan baş açmaq çətin,
Buna dərin zəka, qeyrət gərəkdir.
Vətəni günbəgün ucaltmaq eşqi,
İlhamın qəlbində arzu, diləkdir.

Bu gün Avropanın qapılarını
İlhamla Mehriban açıbdır qoşa.
Avropa yol gəlib Azərbaycana,
Cahan görməyibdir belə tamaşa.

Hamı yaşamaqçün gəlir cahana,
Dahilər milləti yaşadır ancaq.
Bu gerçək əməllər, gözəl əməllər,
Bütün yer üzünə körpü olacaq.

Küçələr, meydanlar gözəlləşibdir.
Sanki süd gölü tək yollar ağarır.
Rəngi üzə gülür firəvanlığın,
Əlçatmaz zirvələr bizi çağırır.

Arzusu gül açıb ulu Öndərin,
Vətən başdan-başa bir laləzardır,
Bu gün Avropanı heyrətə salan
Böyük Azərbaycan imzası vardır.

Eşq olsun vətənin Rəhbər oğluna,
Əməli xainin gözünü oyur.
Cahanın ən uca zirvələrində,
Ulu millətinə bir heykəl qoyur.





Əsrdən-əsrədək bitməz bu hünər,
Aradan ötsə də neçə yüzillilik.
Bu ulu hikməti anlamaq gərək,
Hünərin özüdür ulu gözəllik.

## VII FƏSİL

İlhamdır sevginin əbədi nuru,
Bu nurdan yaranıb üç övladınız.
Sevgi dünyasına bəzək olubdur,
Eşqin qanadıdır qoşa adınız.

Şərəfli oğula könül verəndən,
Sən onun ömrünün yaraşığısan.
Sənə ürəyini verən İlhamın,
Könül işığısan, göz işığısan.

Sevgi xalçasında ana-atanın,
Əbədi məhəbbət ilməsi övlad.
Ata ürəyinin, ana qəlbinin
Ən şirin, ən kövrək nəğməsi övlad.





Babanın, nənənin adını bir gün,
Şirin ləhçə ilə çağırır nəvə.
Babanın, nənənin ömrünə sanki,
Sevinc işığı tək hey yağır nəvə.

Körpə nəvələrin şirin gülüşü,
Ömrü çıraq edir hey başdan-başa.
Körpə nəvələrin kövrək qədəmi,
Ən gözəl nəğmədir, ən xoş tamaşa.

Açılıb taleyin, bəxtin üzünə,
Gözəl nəğmə dolu bir ömür yolu.
Nəvənin boynunu gördüyü gündən,
Babanın, nənənin ömrü duyğulu.

Nəvə gəlişiylə sanki babanın,
Bir də gözlərinə gur işıq gəlir.
Cavan bir nənənin gözəl ömrünə,
İlahi payı tək yaraşıq gəlir.

* * *

Nəsillərin pozulmayan izidir,
Hərarəti ürəkləri isidir.
Bir arzu yox, arzular zirvəsidir,
Sevinclər sevinci, nəvə sevinci.

Açılır arzunun gözəl səhəri,
Gülür şəfəq-şəfəq bəxt üfuqləri.
Qovur ürəklərdən qəmi-qəhəri,
Sevinclər sevinci, nəvə sevinci.





Sevgi dastanının varağıdır o,
Qayğılı günlərin yarağıdır o.
Əzələdən səadət bayrağıdır o,
Sevgilər sevinci nəvə sevinci.

## EPİLOQ

Anamız Tomrisə, Burlaxatuna,
Layiqli varisdir Mehriban xanımı.
Onun sevgi dolu hər kəlməsində,
Fərəhlə səslənir Azərbaycanım.

Milli ruhumuzun güzgüsü olub,
Onunla öyünür Vətən torpağı.
Gözəl məlahətli el gözəlidir.
Ömrünə bəzəkdir xeyirxahlığı.

Ulu xalqımızın şanı, şöhrəti,
Onun qayğısıyla dünyanı gəzir.
Azərbaycan adlı alqış sədası,
Mənfur düşmənlərin bağrını əzir.





Sevimli İlhamla ilhamlanır o,
Gözəllik yaradan hər əməlində.
Ölkədən-ölkəyə sevgi daşıyır,
Göyərçin misallı gözəl əlində.

Şirin səsi ilə yayır cahana,
Bu xalqın, bu yurdun həqiqətini.
Baxmayın qadındır, zərif qəlbində,
Hünərlə daşıyır el qüdrətini.

Başlayıb yurdumun gözəl günləri,
Arzular nə gözəl rəngə bürünür.
Mehriban xanımın məhəbbətindən,
Azərbaycan adlı dünya görünür.



*Tahirə Əyyubqızı Məğrur ədəbiyyata uşaqlıqdan maraq göstərmiş, kiçik həcmli hekayələr və mənsur şeirlər yazmışdır. İlk mənsur şeirləri doğulduğu Ucar rayonunda çıxan «Yeni söz» qəzetində hələ keçən əsrin yetmişinci illərində çap olunmuşdur. O, «Yeni söz» qəzetinin «Çinar nağmələri» və Şəkidə «Şəki fəhləsi» qəzetində yaradılmış «Səbuhi» ədəbi məclislərinin üzvü olmuşdur. Şeirləri bir çox mətbu orqanlarinda və ədəbi almanaxlarda çap olunmuşdur.*

*Tahirə Məğrur 5 kitab müəllifidir.*

*Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.*

TAHİRƏ ƏYYUBQIZI MƏĞRUR

# ZƏRİFLİK İŞIĞI

MBM nəşriyyatı, Bakı-2015 85 səh.

Operator: Ruhiyyə Balakişiyeva
Korrektor: Heyran Həsənova
Dizayner: Pərvanə Maksəliyeva
Çapçı: Qorxmaz Vəliyev

Çapa verilib: 25.08.2015
Çapa buraxılmışdır: 20.09.2015
Format: 60x84 1/16
Tiraj: 500

Azf-287181